2021.- 5 fevral.- S.4.

iki sahil

# Leyla Əliyeva

## Azərbaycan əsgəri haqqında



Parlaq qələbə ilə başa çatan Vətən müharibəsi doğma torpaqlarımızın düşmən tapdağı altından azad olunmasıyla yanaşı, ölkədə milli ruhun oyanışına, qürurlu, mətin bir xalqın, sanki yeni azərbaycanlıların doğuluşuna səbəb oldu. Bir gözümüz hüdudsuz qələbə sevincindən doldusa da, o biri gözümüz haqq və ədalət savaşında canından keçmiş əziz şəhidlərimiz üçün yaş axıtdı və hamımızın qəlbində əbədi məşəltək alovlanacaq qürur və ağrı abidəsi - igid Azərbaycan əsgəri abidəsi ucaldı.

"İki sahil" AZƏRTAC-a istinadən tanınmış Azərbaycan şairi Leyla Əliyevanın Azərbaycan əsgərinin ölümsüzlüyü haqqında qələmə aldığı şeirlərini Salam Sarvanın tərcüməsində təqdim edir.

### ƏSGƏR

*Əsgər... Ədalətə tapınan insan.*
*Qəlbi Qələbənin eşqiylə yanar.*
*Əsgər... Ürəyində vətən vəfası,*
*Köksündə bir sükut çığırtısı var.*
*Güllə qabağında qırpılmaz gözü,*
*Günəşin önünü dağ kəsə bilməz!*
*Əsgər gözəl bilir: sevginin üzü*
*Həqiqət nurundan heç vədə dönməz.*
*Qorxusuz gözləri yırtar gecəni,*
*Alnına qırmızı kölgə salar dan...*
*Zülmətdən qorxmağı anlamaq olar,*
*Dərd odur, dərd odur Gündən qorxasan.*
*Eşidər Allahın pıçıltısını,*
*İlahi nəfəsdən gərilər sinə.*
*O, yalan içində batan dünyanın*
*Yükünü qaldırar çiyinlərinə.*
*Əsgər... Öz yurduna ilahi bir pay:*
*Doğulub müqəddəs gündə, saatda.*
*Zalımın bu nankor, bu kor kölgəsi*
*Əriyər qəlbinin işığı altda.*
*Gərər sinəsini şərə, şeytana,*
*Elin hər daşının həyanı olar.*
*Taleyi yazılmış açıq alnını*
*Söykər sərhəd boyu uzanan yola.*
*Sancılar bayraqtək yüksəkliklərə,*
*Günəşə qoşulub yanan çıraqdı.*
*Yeriyər, yer titrər ayağı altda,*
*And yeri vicdandı, and yeri haqdı.*
*Onun vətənindən müqəddəsi yox,*
*Onun dağlarından yoxdu ucası.*
*Düşür sümüyünə torpağın indi*
*Mətin addımların melodiyası.*
*Hər insan Allahın səsidir axı:*
*Nə qorxar qanından, nə can əsirgər.*
*Gözünün rəngində torpaq qarası,*
*Kürəyi vətənin hasarı əsgər.*

* * *

*Bombalar səs-səsə veriblər yenə,*
*Vətənin bağrından qan axır indi.*
*Düşmən gülləsinə tuş olan əsgər,*
*Yaran qəlbin qədər dərin, dərindi.*
*Ağlayır bir ata itirmiş uşaq,*
*Ağlayır göylərdə Günəş də bu gün.*
*Ellikcə savaşa hazırıq, Vətən,*
*O dərdli uşağın göz yaşı üçün.*
*Bir gün qayıdacaq yerinə hər şey,*
*Bir gün sevinəcək bu yurd, bu ocaq...*
*Ancaq o atanın isti qucağı*
*Bir də o uşağa açılmayacaq.*
*Elimiz qələbə sorağı gözlər:*
*Gözləri yoldadı, qulağı səsdə.*
*Analar əlini qoyub and içir*
*Oğul itkisinin ağrısı üstə.*
*Gün gələr, o zəfər xəbəri gələr,*
*Öpər igidlərin başdaşlarını.*
*Ata nisgiliylə qovrulan uşaq*
*Dəfn elər gözündə göz yaşlarını.*